# Mart Nutt: "Azərbaycan güclü dövlət olmasını bir daha sübut etdi"

***Aprelin əvvəlində Dağlıq Qarabağda qoşunların təmas xəttində vəziyyət çox kəskinləşdi, Ermənistan Azərbaycana qarşı təcavüzkar siyasətini yenidən fəallaşdırdı. Estoniya İnsan Haqları İnstitutunun Şura üzvü, Riyqikoqunun (Estoniya parlamentinin) deputatı Mart Nutt AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində Dağlıq Qarabağ münaqişəsi zonasında yaranmış vəziyyəti şərh edib.***

***-Sizin fikrinizcə, Dağlıq Qarabağ probleminin 20 ildən çox uzanmasına səbəb nədir?***

-Bu münaqişə 20 və ya 25 il bundan əvvəl yox, 100 ildən də çox əvvəl başlanıb. Qarabağda müasir münaqişəyə gəldikdə isə onun köklərini Sovet İttifaqının siyasətində axtarmaq lazımdır. Milli azlıqlara güvənərək bu və ya digər respublikada münaqişələri qızışdırmaq sovet rəhbərliyinə sərf edirdi. SSRİ dağılmağa başlayanda sovet rəhbərliyi öz hakimiyyətini itirməyə başladı, nəticədə bir sıra millətlərarası münaqişələr yarandı, onlardan ən kəskini isə Dağlıq Qarabağ münaqişəsi oldu.

***-Döyüşlər Azərbaycan ərazisində gedir. Ermənistan Azərbaycanın öz ərazisində ona qarşı vuruşur.***



-Siz tamamilə haqlısınız. Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq hüquq normalarına əsasən tanınmış ərazisidir. Dünyada heç bir dövlət, hətta Ermənistan özü də, heç bir beynəlxalq təşkilat heç vaxt Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayıb. Hamıya məlumdur ki, Ermənistan beynəlxalq hüququn müvafiq normalarını və prinsiplərini pozaraq Dağlıq Qarabağı işğal edib.

***-Siz bir tarixçi kimi, siyasətçi kimi bu problemdən çıxış yolunu nədə görürsünüz?***

-Mən əminəm ki, danışıqlar masası arxasında əyləşmək lazımdır. Əlbəttə, müharibə bu münaqişənin həlli yolu deyil.

***-Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə, cümlədən sonuncu bəyanatında da deyib ki, o, Dağlıq Qarabağ məsələsini sülh yolu ilə həll etməyə hazırdır, lakin Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanması şərti ilə.***

-Ermənistan bununla razılaşmalıdır, onun başqa çıxış yolu yoxdur. Əgər Ermənistan razılaşmasa, deməli sülh olmayacaq. Mənim fikrimcə, dünyada heç bir dövlət öz ərazi bütövlüyünün pozulması və ya dəyişdirilməsi ilə razılaşmaz. Ermənistanda çox yaxşı başa düşürlər ki, Azərbaycan Dağlıq Qarabağın itirilməsi ilə heç vaxt barışmayacaq. Bu gün Azərbaycan öz müstəqil siyasətini yürüdür. O, regionda güclü dövlətə çevrilir və bu, bəzi dövlətlərə sərf etmir. Mənim fikrimcə, münaqişənin "dondurulmuş" statusu almasının səbəblərindən biri budur. Azərbaycan Dağlıq Qarabağı və ona bitişik əraziləri özünə qaytarmalıdır. Bunlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləridir. Azərbaycan güclü dövlət olmasını bir daha sübut etdi. Azərbaycan Ermənistandan çox-çox güclüdür. Buna heç kəs şübhə etmir. Lakin ümid edirik ki, Azərbaycan öz torpaqlarını dinc yolla qaytaracaq.

***Nigar Cəfərli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Tallinn***